**UOT 94.**

# ƏRƏBLƏRİN MƏRKƏZİ ASİYADA MƏSKUNLAŞMASI TARİXİ VƏ ONLARIN SOSİAL VƏZİYYƏTİ

**Hülya ASLANOVA***

***Açar sözlər:*** *Mərkəzi Asiya, ərəblər, ərəb işğalı, kütləvi köçürülmə, assimilyasiya*

***XÜLASƏ***

Mərkəzi Asiya ərəbləri- Mərkəzi Asiya ölkələrində yaşayan kiçik etnik qruplardır. Onlar özbək, tacik və türkmən əhalisi arasında kiçik qruplar şəklində yaşayırlar. Mədəniyyət və gündəlik həyat baxımından özbək və tacik əhalisinə yaxın olan Mərkəzi Asiya ərəbləri, qədim mədəniyyətlərinin bəzi xüsusiyyətlərini qoruyub saxlayırlar. İlk vaxtlarda ərəblər kifayət qədər qapalı icmalarda yaşayırdılar. Əsrlər boyu Mərkəzi Asiyanın sayca üstünlük təşkil edən yerli əhalisi ilə ümumi tarixi tale, istehsal güclərinin eyni inkişaf səviyyəsi və nəhayət, dini inanclardakı fərqlərin olmaması ərəblərin taciklərlə, özbəklərlə və türkmənlər tədricən birləşməsinə səbəb oldu. Yerli əhali ilə çoxəsrlik qarışıqlığa baxmayaraq, ərəblər linqvistik izlərini, adət-ənənələrini qoruyub saxlaya bilmişlər. Məqalədə Mərkəzi Asiyanın Ərəb Xilafəti tərəfindən fəth edilməsi nəticəsində ərəblərin böyük qruplarla bu torpaqlara köçürülməsi və möhkəmlənmək məqsədi ilə məskunlaşdırılmasından bəhs edilir. Məqalədə Mərkəzi Asiya ərəblərinin regiona gəlməsi, məskunlaşması tarixinə qısa nəzər salınmış, onların regionun demoqrafik mənzərəsindəki yeri, dil xüsusiyyətləri və məşğuliyyət sahələri haqqında məlumat verilmişdir.

## Giriş

VII əsrdə İslam dininin yaranması ərəblər tərəfindən yeni bir dövlətin – Ərəb Xilafətinin yaradılması üçün stimul oldu. Yeni qurulan dövlət ərazilərini genişləndirmək, həmçinin bu ərazilərdə İslam dinini yaymaq məqsədilə şərqdə və qərbdə işğalçılıq siyasəti həyata keçirirdi. 622-750-ci illəri əhatə edən ərəb və ya müsəlman fəthləri hələ İslam dininin və Ərəb Xilafətinin banisi Məhəmməd peyğəmbərin sağlığında başlamışdır. Bir əsrdən çox davam edən bu dövr ərzində ərəblər Ərəbistan yarımadası xaricində bir çox ölkəni işğal etmiş, Asiya, Afrika və Avropada geniş əraziləri ələ keçirmişlər: Yaxın Şərq ölkələri, Mərkəzi Asiya, şimal-qərbi Hindistan, Şimali Afrika, İspaniya, Cənubi İtaliya, Siciliya, Malta, Rodos, Krit. Ərəb işğalçılarının hücumları altında Sasanilər dövləti, Qassanilər dövləti, Vestqot krallığı, Qafqaz Albaniyası, Xarəzm, Soqdiana və Sind süqut etdi, Bizans Misir, Suriya, Mesopotamiya, Krit, Malta, Siciliya, Rodos, Lazika və Müqəddəs torpaqlar kimi mühüm ərazilərini itirdi. Frank krallığına qarşı müharibə zamanı ərəblər Puatyeyə, xəzərlərlə döyüşlərdə "slavyan çayı"-na (Don, Volqa və ya Dnepr), şərq yürüşlərində isə Racastan və Talasa qədər gedib çıxdılar.

Mərkəzi Asiya, xüsusən də onun dünya sivilizasiyaları ilə daim təmasda olan, uzun müddət oturaq əhalinin məskəninə çevrilən hissəsi – Xorasan və Amudərya ilə Sırdərya çayları arasındakı Mavəraünnəhr (Qərbi Türküstan; ərəbcə: ما وراء النهر — ma vəra ün-nəhr, yəni "çayın o tayı") qədim dövrlərdən günümüzə qədər bir çox toplumu özünə cəlb etmiş, işğalçılar üçün cazibə mərkəzi olmuşdur. Xüsusilə, üç böyük hərbi yürüşün (Makedoniyalı İskəndərin rəhbərliyi altında yunanların, İslam dinini yaymaq məqsədini güdən ərəblərin və dünya dövləti qurmaq məqsədilə Çingiz xanın rəhbərlik etdiyi monqolların səfəri) nəticələri bu bölgədə daha qalıcı olmuşdur. Bunların arasında ərəblərin təsiri daha nəzərə çarpan və uzun müddətli idi.

**AMEA ak.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*E-mail: hulya.aslanova@gmail.com*

Bu gün demək olar ki, bütün Mərkəzi Asiya respublikalarında özlərini ərəb adlandıran və hətta bəzi bölgələrdə öz mühitində ərəbcə danışan və ərəb adət və ənənələrini qoruyan qrupların olması bunun əsas göstəricisidir. Məsələn, başda Özbəkistan olmaqla Tacikistan, Əfqanıstan, Türkmənistan, Qazaxıstan və Qırğızıstanda bir çox şəhər, kənd və məhəllə sakinlərinin ərəb kimi tanınması bunun təsdiqidir. Bundan əlavə, yuxarıda adı çəkilən bölgələrdə "ərəb" adının əlavə olunduğu coğrafi adların olması, özlərini ərəb kimi təqdim edən və ya nəsillərini ərəblərlə əlaqələndirən sakinlərin fiziki baxımdan Sami icmalarının və ya Kiçik Asiya xüsusiyyətlərini daşıması Mərkəzi Asiyada ərəblərin varlığının qorunub saxlandığını göstərir.

Mərkəzi Asiya ərəbləri – Mərkəzi Asiya ölkələrində yaşayan kifayət qədər kiçik ərəb etnik qruplarının toplu adıdır. Sovet Tarix Ensiklopediyasında onlar haqqında deyilir: "Mərkəzi Asiya ərəbləri – Mərkəzi Asiyada yaşayan xalqdır. Onların sayı 8 min nəfərdir (1959). Mərkəzi Asiya ərəbləri özbək, tacik və türkmən əhalisi arasında kiçik qruplar şəklində yaşayırlar; böyük hissəsi Özbəkistan SSR-nin Buxara və Səmərqənd vilayətlərində yaşayırlar. Mərkəzi Asiya ərəblərinin 34%-dən çoxu ərəb dilində, qalanları isə özbək, tacik və türkmən dillərində danışırlar. Mərkəzi Asiya ərəbləri iki qrupa bölünür: şayboni və sanoni. Linqvistik və antropoloji məlumatlar Mərkəzi Asiya ərəblərinin Mesopotamiya və Orta Ərəbistandan müxtəlif dövrlərdə Əfqanıstanın şimalına və oradan da Amudəryanın sağ sahilinə köçmüş köçkünlərin nəsillərindən olduğunu göstərir. Mədəniyyət və gündəlik həyat baxımından özbək və tacik əhalisinə yaxın olan Mərkəzi Asiya ərəbləri, qədim mədəniyyətlərinin bəzi xüsusiyyətlərini qoruyub saxlayırlar" (8, səh.689).

Ərəb ailələri Mərkəzi Asiyaya VII əsrdən XVII əsrə qədər bir neçə dalğada daxil olmuşdur. Onlar əsasən işğal olunmuş torpaqlara möhkəmlənmək məqsədi ilə köçürülən ərəb qarnizonu döyüşçülərinin ailələri idi. Məsələn, 671-ci ildə əsasən Bəsrə və Kufədən olan 50.000 döyüşçü ailələri ilə birlikdə Ziyad ibn Əbi Süfyan tərəfindən Mərvdə yerləşdirilir (2, səh.11). Son dalğanın üzvləri Mərkəzi Asiyaya Əfqanıstan və İran üzərindən daxil olmuşlar. Mərkəzi Asiyada ərəb köçkünləri onlara Ərəbistan iqlimini xatırladan Özbəkistan və Tacikistanın quru subtropik vahələrinə üstünlük verirdilər. Şəhərlərdə birlikdə və ayrı məhəllələrdə, kənd yerlərində isə yerli xalqlara qarışmadan öz qışlaqlarını (kəndlərini) salmağa çalışırdılar (3).

**1. Ərəblərin Mərkəzi Asiyada məskunlaşması tarixinə dair**

Tarixşünaslıqda Ərəblərin Mərkəzi Asiyaya üç mərhələdə gəlmələri haqqında fikir geniş yayılmışdır. Birinci mərhələ ərəblərin VII-VIII əsrlərdə Mərkəzi Asiyaya köçürülməsi ilə başlanır və XIV əsrin sonunda Əmir Teymurun hərbi yürüşlərinə qədər davam edir. Bu dövr ərzində yeni təsərrüfat ərazilərində məskunlaşır, İslam dininin siyasi rolunu nəzərə alaraq yerli cəmiyyətin ictimai-iqtisadi strukturunda öz yerlərini axtarıb tapırdılar. İkinci mərhələ Əmir Teymurun hərbi yürüşləri və müxtəlif etnik qrupların, o cümlədən ərəblərin böyük miqyasda köçürülməsi ilə başlanır. Bu mərhələ Mərkəzi Asiyaya rusların gəlməsinə qədər davam edir. Etnik tarixin bu yeni, üçüncü mərhələsi əvvəllər də olduğu kimi köç xarakteri daşımış və rusların Mərkəzi Asiyada irəliləməsi ilə bağlı olmuşdur. Ərəblərin əksəriyyəti Amudəryanın sol sahilinə köç edilər. Bu köçə kafirlərdən qaçmaq adı verilsə də, alimlərin fikrincə, bunun əsasında daha çox iqtisadi səbəblər durur. Belə ki, mal-qaranın otarılması üçün boş torpaqların olmaması, eləcə də natural vergidən pul vergisinə keçid ənənəvi köçəri təsərrüfatını saxlamağa mane olurdu. Bütün bu mərhələlərin təhlili göstərir ki, Şərqi Xorasan, Şimali Əfqanıstan, Tacikistan və Özbəkistanın cənub bölgələrinin olduqca geniş torpaqlarında orta əsrlərdən bu günümüzə qədər müəyyən ərəb qrupları tərəfindən məskunlaşdırılmış və təsərrüfat üçün istifadə olunmuşdur (4, səh.6-7).

Buxara və Qaşqadərya bölgələrindəki araşdırmalara əsasən isə ərəb miqrasiyasının iki xronoloji cəhətdən fərqli dalğasını təxmin etmək olar. Qaşqadərya ərəblərinin birbaşa əcdadlarının bu bölgədə məskunlaşmasının aşağıdakı dəlillərə əsaslanaraq VII-X əsrlərdə baş verdiyini demək olar:

1. Ceynau kəndinin sakinləri əcdadlarının hicri təqvimin ilk əsrlərində məskunlaşdırılması haqqında hekayələri qoruyub saxlayıblar;

2. Tarixi mənbələr VII-XII əsrlərdə Mərkəzi Asiyanın Qaşqadərya bölgəsində ərəblərin mövcudluğundan xəbər verir;

3. Əl-İstəxriyə görə müasir Qaşqadəryada yaşayan ərəblər və VII-X əsrlərdə burada məskunlaşan ərəblər bir-biri ilə bağlıdırlar və bu bölgədə yaşayan ərəblərin əksəriyyəti özlərini ərəb Qüreyş qəbiləsi ilə əlaqələndirirlər;

4. Qaşqadərya dialektinin Buxara dialekti ilə müqayisəsi, Qaşqadərya ərəb dialektinin daha arxaik olduğunu və klassik ərəb dilinə daha çox bənzərliyini sübut edir ki, bu da onların coğrafi və linqvistik olaraq ərəb dünyasından ayrılması ilə izah edilə bilər (5).

Buxara ərəblərinin birbaşa əcdadları XIV əsrdə məskunlaşmış ola bilər. Bunu aşağıdakılara əsasən demək olar:

1. Şifahi rəvayətlərə görə, Buxara ərəblərinin əcdadları Mərkəzi Asiyada Əmir Teymur tərəfindən yerləşdirilmişdir;

2. Buxara dialektinin linqvistik təhlili ərəb dialektləri üçün ümumi olan, lakin XIV əsrə qədər ədəbi mənbələrdə öz əksini tapmamış bəzi dialektik məqamları aşkar edir (5).

Bütün Mərkəzi Asiya ərəbləri arasında belə bir fikir geniş yayılıb ki, onlar məhz ilk ərəb işğalçılarının nəslindəndilər. Məlumdur ki, VII - VIII əsrlərdə Mərkəzi Asiya ərəblər tərəfindən fəth edilərkən, Mavəraünnəhrin əsas şəhərləri Buxara və Səmərqənddə böyük ərəb qarnizonları saxlanılırdı, hətta sakinlərin ev və torpaqlarının yarısı onlara verilirdi. Regionun fəthi bitəndən sonra ərəblərin məskunlaşma sahələri daha da genişlənmişdi. Daha sonra şəhərlərdə ərəblər sürətlə yerli əhali ilə assimilyasiya oldu (6, səh.250).

S.L.Volinin fikrincə, Amudəryanın sol sahilində vəziyyət bir qədər başqa cür idi. Burada ərəblər tərəfindən daha əvvəl işğal olunan və gələcək işğallar üçün əsas hərbi bazaların yerləşdiyi Mərv və Bəlx rayonlarında, lap əvvəldən böyük qəbilə qrupları şəklində məskunlaşmış çoxlu ərəb var idi. Şəhərlərdə və qonşu kəndlərdə məskunlaşan oturaq ərəblər qısa müddətdə yerli farsdilli və türkdilli xalq kütlələri ilə qaynayıb-qarışdılarsa, köçəri ərəblər öz etnik xüsusiyyətlərini, adət-ənənələrini və dillərini daha uzun müddət – XIX əsrin sonlarına qədər qoruyub saxlaya bildilər (6, səh.250-251; 20).

Rəsmi Rusiya sərhədinin qurulmasından əvvəl Şimali Əfqanıstandakı azsaylı, lakin döyüşkən ərəb qəbilələri (Şəhbərgan və Bəlx bölgələri) IX əsrdən XIX əsrin əvvəllərinə qədər Amudərya çayı boyunca yuxarı-aşağı köç edirdilər. Onlar yerli əhali ilə demək olar ki, heç bir ünsiyyətə girmirdilər və buna görə də ana dilini yaxşı qoruyub saxlaya bilmişdilər (6). Mərkəzi Asiya ərəblərinin müəyyən qrupları arasında qorunub saxlanan əfsanələr və şəcərələr, eləcə də Mərkəzi Asiya ilə Şimali Əfqanıstan ərəbləri arasındakı qohumluq münasibətləri Mərkəzi Asiya ərəblərinin mənşəyinə görə əhəmiyyətli bir hissəsinin Əfqanıstanın şimal bölgələrinin ərəbləri ilə əlaqəli olduğunu göstərir. Bəziləri 200 il əvvəl, əksəriyyəti isə daha erkən dövrlərdə Əfqanıstandan Mərkəzi Asiyaya köç edib. Bunlara Gölab, Kurqantəpə, Qabodiyon və qismən Şərabad ərəbləri aiddir (6, səh.251).

XVI əsr sənədlərində Qaşqadəryanın düzənlik hissəsində yaşamış bədəvi ərəblər haqqında bir çox məlumat var. XVIII əsr sənədlərində isə həşəmi, xocani qəbilələrinin yerləşdirilməsi haqqında məlumatlar yer alır. Ərəblər bütün Mərkəzi Asiya xanlıqlarında, ən çox da Buxara əmirliyində yaşayıblar. Burada onlar digər əhalidən fərqli olaraq, xüsusi vergi – “arab puli” və ya “şatta puli” ödəyirdilər (7, səh.28).

Digər tərəfdən, Qaşqadərya, Kattakurqan və Səmərqənd ərəbləri arasında belə bir əfsanə geniş yayılmışdır ki, onların əcdadlarını bu torpaqlara ərəb ölkələrinə yürüşdən sonra Əmir Teymur köçürmüşdür. Lakin, S.L.Volin qeyd edir ki, iki hal bu əfsanənin etibarlılığını şübhə altına alır: birincisi, Əmir Teymurun hər addımını qeydə alan tarixçilərin heç birində ərəblərin məskunlaşdırılması haqqında məlumat yoxdur; ikincisi, nəzərə almaq lazımdır ki, Mərkəzi Asiya əfsanələri bütün mühüm tarixi hadisələri Əmir Teymurun hakimiyyət illərinə aid edirlər. Eyni zamanda, Volin qeyd edir ki, ərəblərin bir qisminin köçürülməsi Əmir Teymurun hakimiyyətindən illər sonra, 1513-cü ildə baş vermiş hadisə ilə əlaqəli ola bilər. Belə ki, 1513-cü ildə özbək soltanları Canıbəy və Ubeydulla işğal olunmuş Xorasan və Bəlx torpaqlarını boşaltmaq məcburiyyətində qalırlar və bu zaman

Canıbəy sultan ərəblərin də məskunlaşdığı Bəlx və Şəhbərgan sakinlərini öz torpaqlarına – Səmərqənddən Rabat Malikə qədər uzanan Zərəfşan vadisinə köçürür. Bundan əlavə, bir çox sənədlər XVI əsrdə Buxara və Səmərqənd rayonlarında və Qaşqadərya vadisində köçəri ərəblərin yaşadığını göstərir (6, səh.251-252).

Bəlgis Karmışeva özünün "Tacikistan və Özbəkistanın cənub bölgələrinin etnik tarixinə dair oçerklər (etnoqrafik məlumatlar əsasında)" adlı kitabında yazır: "Zərəfşan vadisi, Qaşqadərya çayının aşağı axını, Tacikistan və Özbəkistanın cənub bölgələri ərəbləri arasında topladığım sahə materialları göstərir ki, XX əsrin əvvəllərində onlar öz etnik kimliklərini qoruyub saxlaya bilmiş və ilk növbədə öz etnik qrupları daxilində nikah bağlayırdılar. Bu daha çox ərəb kənd əhalisinin əksəriyyətini təşkil edən yarım köçəri ərəblər üçün xarakterik idi. Bir-birindən xeyli uzaq məsafədə yaşayan qohumlar arasında münasibətlər davamlı olaraq qorunurdu" (6, səh.252).

Mərkəzi Asiya ərəblərinin əksəriyyəti bu gün ilk olaraq gəldikləri və yerləşdikləri bölgələrdə yaşayırlar. Məsələn, Özbəkistandakı ərəb qrupları Buxaranın mərkəzi kəndlərində, Səmərqənd, Qarşı şəhər mərkəzləri və kəndlərində, Tacikistanda isə daha çox cənubdakı Gölab vilayətində və kəndlərində yaşayırlar. Əslində, Özbəkistanda demək olar bütün şəhərlərdə özlərini ərəb adlandıran kənd və ya məhəllə sakinlərinə rast gəlmək olar. Xüsusilə, Xarəzm və Qaraqalpaqıstanda özbəkcə danışan bir neçə kənddə, Nəvai, Əndican, Fərqanə, Surxandərya kimi vilayətlərdə daha çox məhəllələr, qismən də ayrı-ayrı kəndlər şəklində yaşadıqları məlumdur. Burada onlar özbəkcə, qismən də tacikcə danışan ərəb icmaları olaraq tanınırlar. Bu gün Daşkənddə şəxsiyyətlərini ərəb olaraq təyin edən heç bir kənd və ya məhəllə yoxdur, ancaq XX əsrin birinci rübündə rus etnoqraflarının qeydlərində Daşkənd yaxınlığında ərəb ailələrinin mövcudluğu barədə məlumatlar var (8, səh.203).

Özbəkistandan sonra daha çox Tacikistanda məskunlaşan ərəblər yuxarıda da qeyd edildiyi kimi, əsasən cənub vilayətlərdə yaşayırlar. Bununla yanaşı, şimaldakı Xocənd vilayətində özündə 42 ərəb yer adını ehtiva edən kəndin olduğu da məlumdur. Halbuki, 1926-cı ildə Sovet hakimiyyətinin keçirdiyi ilk siyahıyaalmasında Xocənd vilayətində 18 ədəd ərəb adı daşıyan kəndin olması göstərilir. Bu, yəqin ki, əhalinin qeydiyyatının natamam olması ilə əlaqədardır. Fərqanə və Xocəndə yaxın bölgələr olan Qırğızıstanın Oş, Cəlalabad və Özgən ərazilərində özbəkcə danışan ərəb icmaları ayrıca məhəllələr təşkil edərək özbəklərlə eyni kəndlərdə yaşayırlar (8, səh.203-204). Onlar daha çox Tacikistanın cənubunda, Ayvac, Şaartuz, Beşkənd, Sayöd, Qubodiyon, Xuşadi, Pənc, Farxor kimi ərazilərdə yaşayırlar. Nisbətən az sayda isə Düşənbə şəhərində, Tacikistanın Hisar və Tursunzadə rayonlarında da ərəblərə rast gəlmək olar (9).

Ərəblər yerli şəraitə assimilyasiya olunublar. Tacik dilində tədris olunan məktəblərdə təhsil alırlar. 35,7%-i ana dilləri olan ərəb dilində danışır, əlavə olaraq isə hamısı praktik olaraq üç dildə danışır: rus, özbək, tacik. Dini etiqadlarına gəlincə, Tacikistan ərəblərinin 100%-i İslam dininə etiqad edir (9).

Tacikistan ərəblərinin, ümumiyyətlə Mərkəzi Asiya ərəblərinin məskunlaşma tarixi ilə bağlı 21 aprel 1994-cü ildən bəri Tacikistan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmiş "Tacikistan Respublikası Ərəbləri Cəmiyyəti"nin sədri Mirzəyev Məhəmməd-Rəhimin fikirləri maraqlıdır: "Tarixi yaddaşımızda əfsanələr, tayfa, qəbilə adları qorunub saxlanılmışdır ki, bu da etnik mənsubiyyətimizi sübut etməyə imkan verir. Ancaq indi dəqiq olaraq hansı dövlətin tarixi vətənimiz olduğunu demək bizim üçün çətindi. Tədqiqatçıların fikrincə, ərəb qəbilələri Mərkəzi Asiyaya Ərəbistan yarımadasının müxtəlif ərazilərindən köçmüşlər. Hal-hazırda Tacikistan ərəbləri özlərini müsəlman mədəniyyətinin və sivilizasiyasının daşıyıcısı kimi dərk edirlər, lakin tarixi vətənlərinin əsas tarixi mərkəzlərindən didərgin düşmüş hiss edirlər" (10).

Yerli ərəblərin dili ilə bağlı isə sədr aşağıdakı fikirləri irəli sürmüşdür: "Təəssüf ki, uzun əsrlər boyu digər xalqlarla yanaşı yaşayan ərəb nəsilləri dillərini unudublar. Tacik dilində ünsiyyət qururlar, lakin danışıqlarında başqa millətlərin nümayəndələri üçün tamamilə aydın olmayan bəzi ərəb sözlərindən də istifadə edirlər. Atalar sözləri, kəlamlar, əfsanələr də tacik dilində ötürülür. Uşaqlar əsasən Tacikistan məktəblərinə yazılır, tacik dilində təhsil alırlar. Bir çoxlarının pasportlarında milliyyətləri tacik kimi qeyd olunur, ancaq özlərini ərəb olaraq qeyd edənlər də var" (10).

Daha sonra Tacikistan ərəblərinin ictimai vəziyyətinə toxunan sədr aşağıdakıları əlavə etmişdir: "Əvvəllər tarixçilərin də qeyd etdiyi kimi, qadınların ərəb olmayan bir şəxslə evlənməsinə icazə verilməzdi, lakin ərəb kişiləri başqa bir millətin nümayəndəsi - tacik və ya özbəklə ailə qura bilərdi. İndi demək olar ki, belə bir qadağa yoxdur. İllər ərzində ərəblərin ayin və ənənələri taciklərlə eyniləşmişdir. Bu həm toylara, həm bir uşağın dünyaya gəlməsinə, həm də insanın son mənzilə yola salınmasına aiddir. Eyni zamanda, geyimləri, adət-ənənələri, dilləri ilə taciklərdən və özbəklərdən fərqlənməmələrinə baxmayaraq, yerli əhali onları ərəb adlandırmaqda davam edir. Ərəblərin kompakt yaşadığı ərazilərdə rəsmi olaraq "Ərəbxana" adlandırılan kəndlər və camaatlar var" (10).

Qazaxıstanda sayca az olsalar da, ərəb icmalarının mövcud olduğu məlumdur. Burada da Qırğızıstanda olduğu kimi, özbəkcə danışan ərəblərin cənubi Qazaxıstanda, daha çox Çimkənd şəhərinin yaxınlığında "ərəbi" deyə adlanan yaşayış yerlərində məskunlaşdığı bildirilir (8, səh.204).

Türkmənistanda da Çarcuy vilayətindəki bəzi kənd sakinlərinin özlərini ərəb kimi qələmə verdikləri, Daşoğuz vilayətində isə ərəb adını daşıyan 8 kəndin olduğu, lakin yerli sakinlərin özlərini ərəb adlandırmadığı məlumdur. Bundan əlavə, bəzi türkmən tayfalarının ərəblərdən gəldikləri məsələsi də aktualdır. Xüsusilə türkmənlərin əksəriyyətini təşkil edən Təkə, Göklən, Yavmut, Çavdur, Ərsari və s. kimi türk tayfaları ilə yanaşı Ata, Xoca, Şeyx və Maxtum kimi qarışıq mənşəli tayfaların ərəblərlə əlaqəli olduğu fikri çox geniş yayılmışdır (8, səh.204).

Milli şüurdakı dəyişikliyi Səmərqənd bölgəsindəki ərəblərin timsalında görmək olar. Onları ziyarət etmiş məşhur etnoqraf M.S.Andreyev yazır: "Səmərqənddəki ərəblər özləri haqqında ayrıca bir millət təsəvvürünü qoruyub saxlayıblar və kim olduqları soruşulduqda, mütləq şəkildə ərəb olduqlarını söyləyirlər". Amma, indiki dövrdə elə həmin qruplar özlərini özbək adlandırsalar da, ərəb hesab olunmağa davam edirlər. Buna müəyyən dərəcədə ərəblərin qorunub saxlanan fiziki xüsusiyyətləri kömək edir: tacik və özbəklərdə müqayisədə daha əsmər dəri, böyük və donqarlı burun, qalın dodaqlar, böyük qara və ya tünd qəhvəyi badam şəklində gözlər, qara qıvrım saqqal və bığ, çıxıntılı olmayan yanaq sümükləri (11).

**2. Demoqrafik məlumatlar, dil xüsusiyyətləri və əsas məşğuliyyət sahələri**

Mərkəzi Asiyada yaşayan ərəblərin sayına gəlincə, ilk demoqrafik məlumatlar 1897-ci il siyahıyaalınması ilə bağlıdır ki, burada Surxandarya vilayətindən 634 ərəb qeyd olunur. Ərəblərin kəmiyyət tərkibi haqqında ilk dəqiq məlumatlar keçən əsrin 20-ci illərində Türk Respublika Komissiyasının işlərindən məlumdur. Beləliklə, 1924-cü ildə Buxarada 44398, Qaşqadəryada 7321 nəfər ərəb qeyd edilmişdi (7, səh.28-29).

Özbəkistan və Tacikistanda müxtəlif illərdə aparılmış əhalinin siyahıyaalınmasında göstərilən rəqəmlərin getdikcə azalması maraq doğurur. Bu məlumatların müqayisəsi göstərir ki, Orta Asiyada ərəblərin sayında əhəmiyyətli bir azalma olmuşdur. Bu, özbək və tacik sosialist millətlərinin formalaşmağa başladığı Sovet hakimiyyəti illərində ərəblərin özbək və taciklərlə birləşməsi prosesinin sürətlənməsi ilə əlaqədardır. SSRİ-nin dağılmasından sonra ilk on ildə ərəb mühitində milli kimliyi qorumaq marağı yenidən canlandı. Bu, özünü daha çox Tacikistan ərəblərində göstərirdi. Məsələn, 2000-ci ildə Tacikistanda aparılan əhalinin siyahıyaalınmasına görə onların sayı 14450 nəfər təşkil edirdi ki, bu da ümumi əhalinin 0,24%-ni təşkil edir. Lakin, sonrakı illərdə etnik kimlik məsələsi yenidən zəifləməyə başladı. Nəticədə, Mərkəzi Asiyada kök salmış ərəb qruplarının ümumi sayı Tacikistanda 4184 nəfər (2010-cu il siyahıyaalma) və Özbəkistanda 2805 min nəfər (1989-cu il siyahıyaalma) olmaqla 10 mindən çox deyil (12; 13).

| Özbəkistan | | | | | |
|---|---|---|---|---|---|
| Əhalinin siyahıya alınması (il) | 1926-cı il | 1959-cu il | 1989-cu il | 2000-ci il | 2013-cü il |
| Ərəblərin sayı (rəqəm və faiz ilə) | 25206<br>0.53% | 5407<br>0.07% | 2805<br>0.01% | – | – |

| Tacikistan | | | | | |
|---|---|---|---|---|---|
| Əhalinin siyahıya alınması (il) | 1926-cı il | 1959-cu il | 1989-cu il | 2000-ci il | 2010-cu il |
| Ərəblərin sayı (rəqəm və faiz ilə) | 3206<br>0.39% | 1297<br>0.07% | 276<br>0.01% | 14450<br>0.24% | 4184<br>0.06% |

Yerli əhali ilə çoxəsrlik qarışıqlığa baxmayaraq, ərəblər linqvistik izlərini qoruyub saxlaya bilmişlər. Belə ki, onlar ərəbcənin müxtəlif elementlərini yerli dillərə fəal şəkildə daxil etmişdilər. Böyük qəbilə qrupları şəklində məskunlaşan köçəri ərəblər öz xüsusiyyətlərini, xüsusən də ana dillərini daha uzun müddət qoruyub saxlamışlar.

Əgər inqilaba qədər ərəb dili Mərkəzi Asiyada böyük əhəmiyyətə malik idisə, Sovet hakimiyyətinin gəlişi ilə hər şey dəyişdi. Mərkəzi Asiya ərəblərinin çoxu ana dilini unudub özbək və ya tacik dilində danışırlar. Ərəb dili ikinci dil kimi (özbək və ya tacik dili ilə yanaşı) yalnız Buxara və Qaşqadərya vilayətlərinin bir neçə kənd sakinləri arasında qorunub saxlanılıb. Səmərqənd bölgəsində ərəb dilinin tacik və ya özbək ilə tamamilə əvəzlənməsi XX əsrin əvvəllərində tamamlanmışdır (6, səh.249).

Mərkəzi Asiya ərəblərini danışıq dilinə görə 3 qrupa bölmək olar:

1. Özbəkcə danışanlar: Bu qrup daxil olan ərəblər əksəriyyəti təşkil edir. Özbəkistandan başqa digər Mərkəzi Asiya respublikalarında, xüsusilə də Qazaxıstan və Qırğızıstanda yaşayan ərəblər bu dildə danışırlar. Tacikistan ərəblərinin də müəyyən bir qismi özbək dilini ana dili hesab edir və ya ikidilli (tacik və özbək) icma olaraq tanınırlar. Türkmənistan ərəblərinin də öz aralarında özbəkcə danışdığı məlumdur.

2. Tacikcə danışanlar: Tacikistan və Özbəkistanda yaşayan ərəblərin bir qismi bu dildə danışır. Tacikistanda olduğu kimi Özbəkistanda da ərəblər "özbəkcə danışan" və "tacikcə danışan" olaraq iki yerə bölünür.

3. Ərəbcə danışanlar: Özbəkistanda Qaşqadərya və Buxara kəndlərində yaşayan ərəblər ərəbcə danışırlar. Onların sayı elə də çox deyil. Bu iki ərəb dialekti bir-birindən olduqca fərqlidir. Bir-birilərinin ərəbcəsini anlamayan bu iki kənd sakinləri bir-birilərini başa düşmək üçün özbək və ya tacik dilindən istifadə edirlər (8, səh. 205).

Ərəb dilinin Mərkəzi Asiya dialektləri dedikdə Əfqanıstan, Tacikistan və Özbəkistanda yaşayan azsaylı ərəb qrupları arasında yayılmış ərəb dilinin müxtəlif növləri nəzərdə tutulur. Hal-hazırda bu dialektlər itib-batmaqdadır (14). Mərkəzi Asiyanın ərəb dili dialektləri ərəb dilinin digər məşhur dialektlərindən çox fərqlənir və müstəqil dialektlər qrupunu təşkil edir (14).

Mərkəzi Asiya dialektləri Səmərqənd, Buxara, Qaşqadərya, Surxandərya (müasir Özbəkistan), Xatlon vilayəti (müasir Tacikistan) və müasir Əfqanıstanın bəzi rayonlarında yaşayan Mərkəzi Asiya ərəblərinin məskunlaşmış və köçəri icmalarının əksəriyyətinin dili idi. Mərkəzi Asiya dialektinin Mərkəzi Ərəbistan və İraq bədəvilərinin dialektləri ilə ortaq cəhətləri var (14).

XIX əsrin sonunda bir çox ərəb maldarları bu torpaqların Rusiya İmperiyasının mülkiyyətinə keçməsi səbəbindən müasir Özbəkistan və Tacikistan ərazilərini tərk etdilər və Əfqanıstanın şimalına köç etdilər. Hal-hazırda bu ərəblər öz dilində danışmırlar, dari və ya özbək dilində danışırlar (14). SSRİ-nin yaranmasından sonra Özbəkistan və Tacikistanın Mərkəzi Asiya ərəbləri köçəri həyat tərzlərindən imtina etməli oldular, özbəklər, taciklər və türkmənlərlə qarışmağa başladılar. 1959-cu il əhalinin siyahıya alınmasına görə, Mərkəzi Asiya ərəblərinin yalnız 34%-i ərəbcə danışır, qalanları isə öz ana dilləri olaraq özbək və ya tacik dilini göstərirlər. Hal-hazırda Mərkəzi Asiya ərəb dilindən Surxandarya, Qaşqadarya və Buxaranın bəzi kəndlərində istifadə edilir. Hələ 1980-ci illərdə bu dildə danışanların əsasən yaşlı insanlar olduğu bildirilirdi (14).

Özbəkistan ərazisində ərəb dialektinin iki qrupu – Buxara və Qaşqadərya dialektləri mövcuddur. Buxara ərəb dialektinə tacik dili, Qaşqadərya dialektinə isə türk dilləri təsir göstərmişdir. Buxara və Qaşqadərya ərəbləri demək olar ki, bir-birilərini başa düşə bilmirlər.

Buxara dialekti Carqari, Çağdərya, Şoxanbəy kəndlərində, Qicduvan vilayətində, Buxara vilayətində, eləcə də, Vubənd rayonunun Ərəbxana kəndində, Qaşqadərya dialekti isə Ceynau və Qamaşi qışlaqlarında, Beşkənddə və Qarşinin şimal-qərbində istifadə olunur. Onu da qeyd etmək lazımdır ki, yaşayış yerlərindəki ərəb əhalinin sayı ana dilində danışanların sayından xeyli çoxdur (5).

Mərkəzi Asiya ərəb dialektləri (Buxara və Qaşqadərya ərəb dialektləri) ərəb dialektlərinin şərq qrupuna aiddir. Dil əlaqələrini öyrənmək baxımından son dərəcə zəngin bir material təşkil edirlər. Bu baxımdan, müxtəlif quruluşlu dillərin danışıq əlaqələri semit (ərəb), hind-Avropa (tacik, əfqan (dari)) və türk (özbək, türkmən) dilləri arasındakı münasibətlər səviyyəsində xüsusilə vacibdir (5).

Buxara və Qaşqadərya ərəb dialektləri linqvistik baxımdan digər ərəb dialektlərindən fərqlənirlər. Onlar ərəb dialektlərinin müstəqil qrupları hesab olunurlar. Bununla yanaşı, bu iki dialektin özləri də bir-birindən fərqlənirlər. Buna görə də, Buxara və Qaşqadərya ərəbləri bəzən bir-birilərini anlamır və özbək və ya tacik dilində danışmağa üstünlük verirlər. İki dialekt arasındakı dil fərqi, yuxarıda qeyd edildiyi kimi, müxtəlif dövrlərdə Ərəb dünyasının fərqli bölgələrindən gələn müxtəlif köç dalğaları ilə izah edilə bilər. Eyni zamanda, Ceynauda istifadə olunan Qaşqadarya dialekti əsasən özbək dilinin, Buxara ərəb dialekti isə tacik dilinin təsirinə məruz qalır (5).

Ərazi qruplarına bölünmədən əlavə, ərəblər arasında uzun müddət qəbilə qruplarına bölünmə də davam etmişdir. Əhalinin yaddaşında yalnız müxtəlif mənşəli təxminən iyirmi ad qorunub saxlanılmışdır. Bunların arasında, məsələn, Qüreyş kimi qədim bir ərəb qəbiləsinin adı var. Şayboni, sanoni, baluyi kimi qədim adlara da rast gəlinir. Rəvayətlərə görə, zəngiboyi, bəxşiboyi, iskəndəri, raşidi və xocaqi kimi qəbilə qruplarının adları bir neçə yüz il əvvəl yaşamış əcdadların adlarından irəli gəlir. Qəbilə qrupları arasındakı münasibətlər əsasən ailə şənliklərində qarşılıqlı iştirakda, qarşılıqlı yardımda və qəbilə qəbiristanlığının mövcudluğunda ifadə olunur (7, səh.29).

Ərəblərin əsas məşğuliyyətləri əsaslı dəyişikliklərə məruz qalmamışdır. Həm qədim dövrlərdə, həm də bu gün heyvandarlıq və əkinçiliklə məşğul olurlar. Çöl və səhra bölgələrində heyvandarlıq, çay vadilərində əkinçilik üstünlük təşkil edir. Heyvandarlığın ən inkişaf etmiş sahəsi əzəldən bəri Qaragül qoyunlarının və dəvələrin yetişdirilməsi, cənub bölgələrdə isə quyruqlu qoyunların yetişdirilməsi olmuşdur. Buğda, arpa, yonca əkinçiliyi ilə məşğul olur, Sovet dövründə pambıq əkinçiliyinə də başlamışdılar. Bütün bunlarla yanaşı, dəvə yunundan toxuculuq da onlar arasında geniş yayılmışdır (7, səh.30).

Yerli sənətkarlıqdan ərəblərdə xovsuz xalçaların - gilamların toxuculuğu inkişaf etmişdir. Qaşqadərya ərəblərinin rəvayətlərinə görə, xalçaçılıq sənəti Mərkəzi Asiyaya köçmədən əvvəl də bilinən qədim bir peşədir. Xalçalarının özünəməxsusluğu bu iddianı inandırıcı edir. Ərəb xalçaları qamaşi, qarşi və ya ərəbi adı ilə məşhurdur. Keçmişdə bu xalçalar iki cür olurdu. Sırf satış üçün toxunan orta keyfiyyətli xalçalar “bozor qilam” (“satış üçün xalça”), özləri üçün toxunulan, daha zəngin və özünəməxsus naxışlar vurulmuş xalçlar isə “kiz qilam” (“qız xalça”) adlanır. Onlar cehiz kimi verilir, toy mərasimlərində xüsusi rol oynayırlar. Köçəri həyat tərzi xalça məmulatlarının da çeşidini müəyyənləşdirir. Məsələn, cehizlik üçün xüsusi kiçik şeylər – alaçıq qapıları üçün pərdə, müxtəlif növ çantalar, qayçı və mil üçün qutu, duz üçün kisə və s. toxunur. Əsas naxış mürəkkəb kompozisiyalarla məharətlə birləşdirilmiş həndəsi formalardır (7, səh.30; 26).

Pəncə vadisində yaşayan ərəblər ərəbi tipli xalçalar toxumur. Xovsuz zolaqlı xalçalardan başqa onlar dar zolaqlardan tikilmiş yüksək xovlu xalçalar - zülhirs toxuyurlar. Bu növ xalçalar Səmərqənd özbəkləri, eləcə də Alacabof və Maydayab kəndlərində geniş yayılmışdır (15).

Ərəb xalça naxışlarının özbək xalça naxışlarından fərqlənməsi Mərkəzi Asiyaya köçmüş bir çox ərəb nəsillərinin ənənələrinin davamlılığından danışmağa imkan verir (7, səh. 30).

**Nəticə**

Mərkəzi Asiya, xüsusən də onun dünya sivilizasiyaları ilə daim təmasda olan, uzun müddət oturaq əhalinin məskəninə çevrilən hissəsi – Xorasan və Amudərya ilə Sırdərya çayları arasındakı Mavəraünnəhr qədim dövrlərdən günümüzə qədər bir çox toplumu özünə cəlb etmiş, işğalçılar üçün maraq mərkəzi olmuşdur. Bunların arasında ərəblərin təsiri daha nəzərə çarpan və uzun müddətli idi.

Ərəblərin Mərkəzi Asiyaya gətirdikləri yeni din tezliklə Mavəraünnəhrin əvvəlcə oturaq, sonra köçəri əhalisi arasında yayıldı. Ərəb dili bir müddət rəsmi yazışma dili olmuş, lakin daha çox elm dili, yalnız Orta Şərqin deyil, Mərkəzi Asiyanın da elm xadimləri arasında əlaqə vasitəsi olaraq kök saldı. Məsələn, Mərakeş səyyahı İbn Bətutə (1304-1377) Mavəraünnəhr alimləri ilə öz doğma dilində sərbəst ünsiyyət qururdu. Bu dildə əl-Fərabi, İbn Sina, əl-Xarəzmi və Birunu kimi alimlər yazıb yaradıblar (7, səh.28).

İlk vaxtlarda ərəblər şəhərlərdə də yerli rayonları, məhəllələri tutaraq kifayət qədər qapalı icmalarda yaşayırdılar. Ərəblərin gündəlik həyatda nisbi təcridinə baxmayaraq, əsrlər boyu Mərkəzi Asiyanın sayca üstünlük təşkil edən yerli əhalisi ilə ümumi tarixi tale, istehsal güclərinin eyni inkişaf səviyyəsi və nəhayət, dini inanclardakı fərqlərin olmaması ərəblərin taciklərlə, özbəklərlə və türkmənlər tədricən birləşməsinə səbəb oldu. Keçmişdə şəhərlərdəki və böyük kəndlərdəki ərəblər kompakt şəkildə yaşayırdılar, ayrı məhəllələri və ya məhəllələrin bir hissəsini tuturdular. Kənd yerlərində ərəb qışlaqları (kəndləri) təkbaşına və ya qrup halında özbək, tacik və ya türkmən kəndləri arasında yerləşirdi. Müasir dövrdə şəhərlərdə və geniş qəsəbələrdə yeni inşa edilmiş məhəllələrdə ərəblər digər millətlərin nümayəndələri ilə qarışıq yaşayırlar.

Yerli əhali ilə çoxəsrlik qarışıqlığa baxmayaraq, ərəblər linqvistik izlərini, adət-ənənələrini qoruyub saxlaya bilmişlər. Hal-hazırda ərəblər respublikanın milli iqtisadiyyatının bütün sahələrində, sənaye, ticarət və təhsil sahəsində çalışırlar.

## ƏDƏBİYYAT


1. Советская историческая энциклопедияТом 1.(1961). Москва, Государственное научное издательство «Советская энциклопедия»
2. Гафуров Б.Г. (1989). Таджики. Древнейшая, древняя и средневековая история. Душанбе, «Ирфон»
3. Нурулла М. Среднеазиатские арабы: кто они? [Elektron resurs] / islamtoday.26.01.2022. URL: https://islam-today.ru/istoria/sredneaziatskie-araby-kto-oni/
4. Мадамиджанова З.М. (1994). Арабы Южного Таджикистана. Автореферат, Москва
5. Чиковани Г. На каком языке говорят арабы Центральной Азии? [Elektron resurs] / CAAN - Central Asian Analytical Network. 26.01.2022. URL:https://caa-network.org/archives/10806
6. Кармышева Б.Х. (1976). Очерки этнической истории южных районов Таджикистана и Узбекистана. Москва, «Наука».
7. Ильхамов А. (2002). Этнический атлас Узбекистана. Ташкент, ИООФС – Узбекистан, ЛИА «Р. Элинина».
8. Racabov R. (2011). Orta Asya'nın Türk Dilli Arapları // Ankara Hacı Bayram Veli Üniversitesi Gazi Türkiyat Türkoloji Araştırmaları Dergisi, sayı: 9, s.201-208.
9. Арабы Таджикистана [Elektron resurs] / MINORITY национальные меньшинства Таджикистана. 26.01.2022. URL:https://web.archive.org/web/20120323091351/ http://www.minority.tj/index.php?option=com_content&task=view&id=23&Itemid=11
10. Усманова Г. Арабы Таджикистана [Elektron resurs] / Чархи Гардун. 26.01.2022. URL:https://web.archive.org/web/20130309202658/http://gazeta.tj/dp/6917-araby-tadzhikistana.html
11. Среднеазиатские арабы [Elektron resurs] / Kaz-Lit.kz. 26.01.2022. URL: http://kaz-lit.kz/narody-kazahstana/sredneaziatskie-arabi
12. Население Узбекистана [Elektron resurs] / Wikipedia. 26.01.2022. URL:https://ru.wikipedia.org/wiki/население_узбекистана#этнический_состав_и_языки
13. Население Таджикистана [Elektron resurs] / Wikipedia. 26.01.2022. URL:https://ru.wikipedia.org/wiki/население_таджикистана#национальный_состав

14. Среднеазиатские диалекты арабского языка [Elektron resurs] / Wikipedia. 26.01.2022. URL:https://ru.wikipedia.org/wiki/Среднеазиатские_диалекты_арабского_языка

15. Среднеазиатские арабы [Elektron resurs] / Eurasica. 26.01.2022. URL:https://forum-eurasica.ru/topic/904-среднеазиатские-арабы/

***РЕЗЮМЕ***

***Хулья АСЛАНОВА***

***История расселения арабов в Средней Азии и их социальное положение***

***Ключевые слова:*** *Центральная Азия, арабы, арабская оккупация, массовое переселение, ассимиляция*

Центральноазиатские арабы – это небольшие этнические группы, проживающие в странах Центральной Азии. Они живут небольшими группами среди узбекского, таджикского и туркменского населения.Среднеазиатские арабы, близкие по культуре и быту к узбекскому и таджикскому населению, до сих пор сохраняют некоторые черты своей древней культуры.Вначалеарабы жили довольно замкнутыми общинами. Общая историческая судьба с преимущественно коренным населением Средней Азии на протяжении веков, одинаковый уровень развития производительных сил и, наконец, отсутствие различий в религиозных взглядах привели к постепенному объединение арабов с таджиками, узбеками и туркменами. Несмотря на многовековое смешение с местным населением, арабам удалось сохранить свои языковые следы и традиции. В статье рассматривается массовое переселение арабов в результате завоевания Средней Азии Арабским халифатом и их расселение с целью укрепления. В статье дается краткий обзор истории прибытия и расселения арабов Центральной Азии в регионе, приводятся сведения об их месте в демографическойкартине региона, языковых особенностях и основных областях занятия.

***SUMMARY***

***Hulya ASLANOVA***

***History of Arab Settlement in Central Asia and Their Social Status***

***Keywords:*** *Central Asia, Arabs, Arab occupation, mass relocation, assimilation*

Central Asian Arabs are small ethnic groups living in the countries of Central Asia.They live in small groups among the Uzbek, Tajik and Turkmen populations. Central Asian Arabs, close in culture and way of life to the Uzbek and Tajik population, still retain some features of their ancient culture. In the beginning, the Arabs lived in rather closed communities. The common historical fate with the predominantly indigenous population of Central Asia over the centuries, the same level of development of productive forces and, finally, the absence of differences in religious views led to the gradual unification of the Arabs with Tajiks, Uzbeks and Turkmens. Despite centuries of assimilation with the local population, the Arabs managed to preserve their linguistic traces and traditions.

The article discusses the mass relocation of Arabs as a result of the conquest of Central Asia by the Arab Caliphateand their resettlement in order to strengthen. The article gives a brief overview of the history of the arrival and settlement of Arabs in Central Asia, and provides information about their place in the demographic picture of the region, language features and main areas ofoccupation.